**POS-terminallarla bağlı qaydalar təsdiq edilmişdir**

Nazirlər Kabinetinin oktyabrın 4-də təsdiq etdiyi «Azərbaycan ərazisində POS-terminalların quraşdırılması, istifadəsi və tətbiqi Qaydaları»nda ölkədə POS-terminalların quraşdırılması prosesinin 2016-cı ilədək başa çatdırılması nəzərdə tutulur. Qaydalara edilmiş əlavələrə görə, Bakıda, Gəncədə və Sumqayıtda bu proses 2012-ci ildə, Abşeron, Mingəçevir, Şirvan, Şəki, Lənkəran, Yevlax, Bərdə, Naxçıvan, Quba, Xaçmaz, Masallı, Göyçay, Şamaxı, Zaqatala, Şəmkir, Tovuz, Salyan, Sabirabad rayonlarında və şəhərlərində (kənd və qəsəbələr istisna olmaqla) - 2013-cü ildə, digər rayon mərkəzlərində (kənd və qəsəbələr istisna olmaqla) 2014-cü ildə başa çatdırılmalıdır. Ölkənin bütün kənd və qəsəbələrində POS-terminallar 2015-ci ilin sonunadək quraşdırılmalıdır.

Qaydalarda göstərilir ki, ərazisindən asılı olmayaraq vergilərin, dövlət rüsumları və ödəmələrinin qəbul edildiyi bütün dövlət orqanlarında POS-terminallar 2013-cü ildə quraşdırılmalıdır. POS-terminalların quraşdırılması ƏDV ödəyiciləri olan bütün təsərrüfat subyektləri (obyektləri), rüb üzrə orta aylıq dövriyyəsi iki min manatdan çox olan vergi ödəyiciləri, hüquqi şəxslərə və fərdi sahibkarlara aid minik avtomobilləri ilə sərnişindaşıma həyata keçirən nəqliyyat vasitələri, vergilərin, dövlət rüsumlarının və haqlarının ödənişini qəbul edən dövlət orqanları üçün məcburi hesab edilir. Təsərrüfat subyektlərinin (obyektlərinin) qeydiyyata alındığı andan, dövriyyədən və ərazidən asılı olmayaraq, POS-terminallar həmçinin mebel və avtomobillərin satışı üzrə ixtisaslaşdırılmış müəssisələrdə, idman-sağlamlıq komplekslərində, səhiyyə, asudə vaxt və əyləncə obyektlərində, mehmanxanalarda, şadlıq evlərində, yanacaqdoldurma məntəqələrində, turizm şirkətlərində və bütün nəqliyyat növlərinin (hava, dəmir yolu, su və avtomobil nəqliyyatı) sərnişinləri üçün biletlərin satışı məntəqələrində quraşdırılmalıdır.

Qeyd edək ki, oktyabrın 1-dək Vergilər Nazirliyində qeydiyyatda olan POS-terminalların sayı 33744 olmuşdur ki, onlardan 30669-u Bakı şəhərinin, 3075 isə ərazi vergilər idarələrinin payına düşür...

Arzu İBRAHİMOVA